# Azərbaycan Respublikası
# Qobustan rayonu İcra hakimiyyətinin başçısının
# SƏRƏNCAMI

**№026** **25 fevral 2021-ci il**

**Mənzil Məsələləri üzrə Komissiyanın yaradılması haqqında**

“Yerli icra hakimiyyətləri haqqında Əsasnamə”nin 3.9.6-cı maddəsinə uyğun olaraq Azərbaycan Respublikasının Mənzil Məcəlləsində yerli icra hakimiyyətləri tərəfindən icrası nəzərdə tutulmuş vəzifələrin həyata keçirilməsi məqsədilə

**QƏRARA ALIRAM:**

1.Aşağıdakı tərkibdə Mənzil Məsələləri üzrə Komissiya yaradılsın:

M.X.Əkbərov Başçının müavini -Sosial-iqtisadi inkişafın təhlili və proqnozlaşdırılması şöbəsinin müdiri-**sədr**

R.İ.Dəmirov RİHBA-nın Vətən müharibəsi iştirakçıları və şəhid ailələri ilə işin təşkili şöbəsinin müdiri - **komissiyanın katibi**

**ÜZVLƏR:**

E.E.Mikayılov RİHBA-nın Ərazi idarəetmə və yerli özünüidarəetmə orqanları ilə iş şöbəsinin müdiri

M.A.Əliyev RİHBA-nın Memarlıq və tikinti şöbəsinin müdiri-baş memar

A.H.Şikarov RİHBA-nın İctimai-siyasi və humanitar məsələlər şöbəsi müdirinin müavini-dini qurumlarla işin təşkilatçısı

İ.Ə.Məmmədova RİHBA-nın Hüquq şöbəsinin məsləhətçisi

N.G.Qayıbov Qarabağ müharibəsi əlilləri, veteranları və Şəhid ailələri ictimai birliyinin Qobustan rayon filialının sədr müavini

2.Komissiyaya tapşırılsın ki, qanunvericiliyə müvafiq qaydada rayon ərazisində mənzil şəraitinin yaxşılaşdırılmasına ehtiyacı olan vətəndaşların uçota alınması, inşa edilmiş mənzillərin bölgüsü ilə əlaqədar olaraq qanunamüvafiq tədbirləri həyata keçirsinlər.

3.Qobustan rayonu İcra hakimiyyəti başçısının 03 mart 2009-cu il tarixli 017 nömrəli, 21 iyul 2011-ci il 018 nömrəli və 16 iyul 2020-ci il 073 nömrəli sərəncamları qüvvədən düşmüş hesab edilsin.

**Qobustan rayonu İcra hakimiyyətinin başçısı: A.M.Məmmədov**